Tarix və onun problemləri, №4 2009

ADİL ABDULLAYEV
*(BDU)*

# ŞİFAHİ XALQ YARADICILIĞINDA ÖVLADIN AİLƏ VƏ CƏMİYYƏTDƏ MÖVQEYİ MƏSƏLƏSİNƏ DAİR

Azərbaycanlıların ailə məişətində övladın ailə daxilində və cəmiyyətdəki rolu, mövqeyi etnoqrafik elmi ədəbiyyatda xüsusi maraq doğuran məsələlərdəndir. Şifahi xalq yaradıcılığı nümunələrində də bu məsələ geniş əks olunmuşdur. Belə ki, yeni fərdin anadan olması, ona qulluq və sonrakı tərbiyəsi çoxmərhələli və özünəməxsus xüsusiyyətləri ilə seçilən etnik adət-ənənələr toplusudur. İbtidai icmanın sonundan etibarən atanın öz mirasını, varidatını övladına ötürmək arzusu, istəyi möhkəmlənir və ər evində qadının mövqeyi, mövcud cəmiyyətdə isə kişinin mövqeyi bilavasitə övladı (xüsusən də onun oğlan olması) ilə müəyyənləşirdi. Azərbaycanın süjet etibarilə zəngin xalq dastanlarında doğum və ailədə uşaqların tərbiyəsi ətraflı əks olunmuşdur. Milli folklor nümunələrimizdə bu cəhətləri izləyən tədqiqatçılar «uşağın dünyaya gəlməsi ailəyə xoşbəxtlik və sevinc gətirməli idi. Ona görə də hər bir ailənin imkanından asılı olaraq şənlik düzəldilmiş və körpənin şəninə nəğmələr deyilmişdir»(6,104). Hal-hazırda da öz aktuallığını itirməyən laylalar bu mahnıların əsasını təşkil edir. Folklorşünas V.Vəliyev laylalar haqqında yazarkən, Azərbaycan poeziyasında laylaların çoxluğu və mövzu cəhətdən rəngarəngliyi göstərir ki, körpəyə arzu edilən xoşbəxtlik və səadət, ananın hiss və həyəcanları, insanın boya-başa çatması üçün dövrün müəyyən magik görüşləri də laylalar vasitəsilə, beşik başında əks etdirilmişdir (6,105). Göründüyü kimi, körpənin dünyaya gəlməsi və onun beşikdə olduğu vaxtlarda ananın, qohumların qulluğu folklorumuzun bütöv bir janrının yaranmasına səbəb olmuşdur.

Xalq inancına görə övlad Allahın insana verdiyi paydır, həmin payı uca yaradandan ala bilmək üçün ona xoş gedən işlərin görülməsinin vacib hesab olunmuşdur: yoxsullara kömək etmək, qurban kəsib paylamaq, nəzir vermək və s. «Qurbani» dastanında da ailənin övlad problemi qabarıq şəkildə verilmiş, 772 evin sahibi Hüseyn xanın qardaşı Mirzalı xanın övladının olmaması və ilahi pay almaq məqsədilə neçə illər ərzində nəzir-niyaz verməsi, qurbanlar kəsdirib paylaması çox həyati şəkildə təsvir olunmuşdur(3,204-205). Bu cəhdlərin nəticəsiz qalmaması, xanın oğlunun olması və adının Qurbani qoyulması da müasir dövrümüzə qədər gəlib çatan adətlərin şifahi xalq yaradıcılığındakı göstəricisidir. Digər dastanlardan «Leyli və Məcnun»da da göstərilir ki, xacə Abdulla övladının olması üçün var-yoxunu ehsan vermiş, fəqir-füqəranın qarnını doyurmuş, əlsiz-ayqsızlara qızıl və pullarını paylamışdır(3,323-324). Məlumdur ki, real gerçəkliyi bədii boyalarla əks etdirən floklor janrlarının müxtəlif nümunələri xalqımızın ənənəvi ailə məişətinə dair zəngin faktlar verir. Bu nümunələrdə əsasən kiçik ailələrdən – ata, anna və övladlardan ibarət monoqam ailədən bəhs olunduğundan övlad və onun gələcək tərbiyəsi davamlı olaraq diqqət mərkəzində durur. Odur ki, digər bir maraqlı məqamı «Şəms-Qəmər» nağılında da izləyə bilrəik. Nağılda vəzir ovladsız padşaha məsləhət edərək qırx gün-qırx gecə kasıblara pay verməyi məshət görür(3,319). Təbii olaraq, hökmdar məsləhətə əməl edir və müsbət natica onu sevindirir. Ən məşhur qəhrəmanlıq dastanlarımızdan olan «Koroğlu» eposunda da bu nisgil bütün dastan boyunca Koroğlunun dilindən səsləndirilir. Aşıq Cununa müraciətlə öz dərdini izah edən yenilməz qəhrəman deyir:

Sənə nə deyim, aşıq Cunun!
Gözlərimdən yaş inildər.

Bir igid oğlun ucundan
Şeş atanda beş inildər (7 ,118).

Maraqlıdır ki, epik nümunələrimizdə övladın oğlan olması ata tərəfindən müəyyən qədər daha fərli qiymətləndirilirdi. İllərin sınağından keçmiş atalar sözlərimizdən birində deyildiyi kimi «oğul arxadırsa, qız yaraşıqdır» misalı nağıl və dastanlarımızda öz əksini tapmışdır. «Tapdıq» nağılından buna nümunə göstərmək olar. «Təkcə bir qızı olan Süleyman adlı varlı tacir çox fikirli və qəmgin gəzir. Arvadı Minagərdən ondan bunun səbəbini soruşanda, əri cavab verir: Ay mənim məhəbbətli arvadım, bəs mən fikir eləməyim kim eləsin. Saqqalıma dən düşüb, bu gün-sabah dər fənadan dar-üçbayı rəhmət təlimini vuracağam. Bəs mənim bu dövlətimə, cahi-cəlalıma kim sahib duracaq... oğlum yoxdur, çırağım keçəcəkdir» (1,221). Nağıllarımızdan aydın olur ki, keçmişdə oğul atası öləndən sonra qəbrinin üstündə müəyyən müddət çıraq (şam) yandırmalı idi. «Gül Sənavərə neylədi, Sənavər gülə neylədi» adlı nağılda kişi arvadına gileylənib deyir ki, gorumda çıraq yandıranım yoxdur(1,269). Ata xaqanlığının formalaşmasından etibarən həm varidatın ötürülməsi, həm də şəcərənin davam etməsi oğlanın olması ilə reallaşdırılırdı. Məlum olduğu kimi, varidatın bölüşdürülməsi aktı nəslin ağsaqqalının iştirakı ilə həyata keçirilsə də, ailə başçısı kimi atanın qərarı həlledici rol oynayırdı. Etnoqrafik müşahidələr bir sıra bölgələrimizdə ata mirasının daha artıq hissəsinin qıza deyil, oğula keçməsini göstərir. Tacirin çırağının keçəcəyinə işarə etməsi də oğlu olmayacağı təqdirdə onun soyadının daşıyıcısının da kəslməsini göstərir. Bu ənənə xüsusən hökmdarlar üçün vacib hesab olunurdu, çünki hökmdarın mirası var-dövlətlə yanaşı, həm də bir hakimiyyət, dövlət idarəçiliyi idi. «Mahmud və Ağcaquş» dastanında deyilir ki, bir padşahın oğlu yox idi. «Padşah ağsaqqal-qarasaqqalların sözünə baxdı, kasıb-kusublara varından payladı, 9 aydan sonra onun oğlu oldu»(4, 85). «Tahir və Zöhrə» dastanında isə deyilir ki, uzun müddət keçdikdən sonra oğlu olmuş Əhməd vəzir yetim-yesirə, fəqir-füqəraya ehsan verdi. «Aşıq Xanpəri» dastanında təsvir olunur ki, Bidlis şəhərində yaşayan hacı Sayadın oğlu yox idi və o, əhd edir ki, oğlu olarsa, Qanlıçayın üstündə körpü tikəcək. Bu əhdinə görə Allah ona əkiz uşaq – bir oğlan və bir qız verir»(3, 382). Gördüyümüz kimi, Azərbaycan şifahi xalq yaradıcılığında arıcıl olaraq belə bir fikir təlqin olunur ki, Allahdan övlad payı almaq istəyən şəxslər xeyirxah iş görməli, abadlıq işləri ilə məşğul olmalıdırlar.

Məhz xeyirxah işlərin nəticəsində dünyaya gəlmiş övladın tərbiyəsi onun cəmiyyət və ailə daxilindəki rolunu müəyyənləşdirmək baxımdan mühüm yer tutur. Ağsaqqallara, qadınlara hörmət, əmək və zəhmətin aşılanması, qonaqpərvərlik və bütün müsbət keyfiyyətlər uşaqlara hələ kiçik yaşlarından təlqin edilirdi. «Üç şahzadə» nağılında ata oğluna məsləhət verərək, həmişə dara düşəndə qocaların məsləhətinə qulaq asmağı tövsiyə edir və elə həmin nağılda «öz əlinin zəhməti ilə qazanmayıb ata malına göz dikənlər axırda bədbəxt olarlar»- deyimi ilə şifahi xalq yaradıcılığımızda daim nümunəvi davranış qaydalarının aparıcı yer tutmasını göstərə bilərik( 1, 298-307). Ailə təsərrüfat özəyi olmaqla yanaşı, həm də tərbiyə ocağı idi. Adətən, bu iş ata-ananın vəzifəsi olsa da, varlı ailələrdə xüsusi dayələrin xidmətlərindən də istifadə olunurdu. Xalq yaradıcılığımızdan da məlum olur ki, 7-8 yaşa qədər ailə daxilində, sonra isə məktəb-mədrəsələrdə elm-ədəb öyrədilirdi, lakin dastanlarda hansı fənlərin hansı qaydada tədrisi barədə səhih məlumatlar verilmir( 2,218). Bununla belə, məlum olur ki, uşaqlar bir neçə il ərzində bütün elmlərdən, davranış qaydalarından xəbərdar olurdular. Yoxsul ailələrdən olan oğlanlar isə mütləq konkret bir sənətə yiyələnməli idilər. Sənət seçimində onlara demək olar ki, müstəqillik verilirdi.

Azərbaycanlılar arasında ən geniş yayılmış adətlərdən biri də qonaqpərvərlik olmuşdur. Ailənin kiçik yaşlı nümayəndələri qonağa hörmət ruhunda tərbiyə edilir və

«Allah qonağı» ifadəsi aşılanırdı. «Qızıl qoç» nağılında Məlik sevdiyi qızı axtararkən bir qarı nənənin evinə pənah gətirir və «Allaha da qurban olum, onun qonağına da...» sözləri ilə qarşılanır. «Dərzi şagirdi Əhməd» nağılında: qonağa hörmət ev sahibinin borcudur; «Padşah və dəmirçi» nağılında: gecə vaxtı qonağı qapıda qaytarmazlar, «Məlik Məhəmməd» nağılında: «Allah qonağı» - ifadələri işlənir və dolayısı ilə bu nağılları oxuyan uşaqlara həmin müsbət keyfiyyətlər aşılanır(1, 21,382,461). Adətə görə, qonaqdan niyə gəlib, nə vaxt gedəcəyini soruşmazdılar. «Qonaqdan gəlişini yox, görüşünü soruşarlar» kimi atalar sözü də bununla əlaqədar yaranmışdır(8, 125,198,). Hal-hazırda da mümükün qədər evlərdə xüsusi qonaq otaqlarının təşkil edilməsi bu ənənənin davam etdirilməsinin göstəricisidir.

Uşaqların namuslu, qeyrətli, vətənsevər, cəld, dözümlü keyfiyyətlərdə böyüdülməsi dastanlar və nağıllarla yanaşı, ənənəvi xalq oyunlarımızda, atalar sözlərimizdə də əks olunmuşdur (2,228-238). Valideynlər övladlarına yaxşılıq etmək, yardımsevərlik öyrədirdi. «Yeddi nar çubuğu» nağılında bir qoca kişinin vəzirə dediyi müdrik söz də uşaqların yaddaşında uzun müddət qalan ibrətamiz misaldır: «Yaxşılara yaxşılıq elə, pislərə öz pislikləri kifayət edər»(1,465). Qeyd etmək lazımdır ki, paralel olaraq, övladın öz valideynlərinə münasibətində gözlənilməsi vacib olan məqamlar da milli yaradıcılıq nümunələrimizdə yer almışdır. Ailədə oğulun atanın üzünə ağ olmağa haqqı yox idi. Elmi baxımdan yanaşdıqda, oğulun atanın iradəsinə tabe olması patriarxal ailə münasibətlərindən gəlmə element hesab edilə bilər. Lakin bu münasibətlərdə hörmət əsas yer tuturdu. «Yuxarıda Allah, aşağıda ata-ana», «anadan keçən andından keçər», «atasını atan, elinidə atar, namüs-qeyrətini də» kimi atalar sözləri də bu baxımdan müsbət qiymətləndirilə bilər (8,120). Gördüyümüz kimi, əsas tərbiyə ocağı olan ailə övladın şəxsiyyət kimi yetişməsində mühüm amil hesab olunur, onun istər ailə daxilində, istərsə də cəmiyyətdəki rolu və mövqeyini məhz bu ocağın illər ərzində formalaşmaqda olan yeni ailə üzvünə aşıladığı keyfiyyətlərin göstəricisi müəyyənləşdir. Təsadüfi deyil ki, hələ də xalq içərisində «övlad evin aynasıdır»- deyimi aktualdır.

### *ƏDƏBİYYAT:*

1.Azərbaycan ədəbiyyatı inciləri. Nağıllar B.1985
2.Azərbaycan folkloru antologiyası I c.B.1968
3.Azərbaycan məhəbbət dastanları 1980
4.Azərbaycan xalq dastanları B.1983
5.Azərbaycan xalq dastanları II c. B.1961
6.Vəliyev V. Azərbaycan folkloru B.1985
7.Koroğlu. Bakı 1959
8.Həkimov M.İ.Xalqımızın deyimləri və duyumları B.1968

**АДИЛЬ АБДУЛЛАЕВ**

## О МЕСТО ДЕТЕЙ В СЕМЬЕ И ОБЩЕСТВЕ В УСТНОЙ НАРОДНОЙ ТВОРЧЕСТВЕ

Данная статья посвящена одной из интереснейших проблем этнографии Азербайджана. Семейно-бытовые отношения азербайджанской семьи многообразно и некоторые нюансы этой отношении своеобразно отнесено устной народной творчестве. В статье рассматривается отражение в устной народной творчестве место детей в семье и в обществе, их воспитание, взаимоотношение между детей и родителями. Многочисленные сказки, эпосы, пословицы очень четко описывают этот роль.

**ADIL ABDULLAEV**

## ABOUT THE FAMILY AND THE PLACE IN THE SOCIETY OF THE CHILDREN

Article has been devoted to one of interesting problems of Azerbaijan ethnography. Family and life attitudes of Azerbaijan family have been multiple-field and definite suitable times of these attitudes have passed through to the oral folk art in the specific picture. Family and the place in the society of the children in the article, oral folk art, there education, with parents is considered their mutual attitude between children. Some tales, eposes, proverbs describe it clearly.

***Rəyçilər: t.e.n.Q.Rəcəbli, t.e.d.Q.S.İsmailov.***
***BDU-nun Tarix fakültəsi Arxeologiya və Etnoqrafiya kafedrasının 25 sentyabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №02).***